# ƏDƏBİYYAT

*(III ixtisas qrupu üçün)*

*Ədəbiyyatdan qəbul imtahanı proqramı Təhsil Nazirliyinin 17.07.2003-cü il tarixli, 716 nömrəli əmri ilə təsdiq olunmuş tədris proqramı və X–XI siniflərin yeni "Ədəbiyyat" dərslikləri əsasında hazırlanmışdır. Həmçinin Təhsil Nazirliyinin 10-cu sinfin "Ədəbiyyat" dərsliyi ilə bağlı 07.04.2005-ci il tarixli, 227 nömrəli və 11-ci sinfin "Ədəbiyyat" dərsliyi ilə bağlı 14.06.2006-cı il tarixli, 569 nömrəli əmrləri də nəzərə alınmışdır. Ədəbiyyat nəzəriyyəsindən mövzular seçilərkən Ş.Mikayılovun "Ədəbiyyat nəzəriyyəsi" adlı (IX-XI siniflər) dərs vəsaiti əsas götürülmüşdür.*

*Ayrı-ayrı bədii əsərlərin mətni üzrə sual və tapşırıqlar X və XI siniflər üçün "Ədəbiyyat müntəxəbatları" əsasında tərtib olunmuşdur.*

***Ədəbiyyat proqramı** ümumtəhsil məktəblərinin sistemli ədəbiyyat kursunu tam əhatə edir.*

*Abituriyentin Azərbaycan ədəbiyyatının müxtəlif dövrləri, ayrı-ayrı sənətkarların həyatı, yaradıcılığı və ayrıca öyrənilən əsərləri barədə mükəmməl biliyi olmalıdır. Bundan əlavə, abituriyentlər test imtahanının tələblərinə uyğun olaraq sənətkarın yaradıcılığı, ayrıca öyrənilən əsərlərinin məzmunu, təhlili, qiymətləndirilməsi ilə əlaqədar aşağıdakıları da bacarmalıdırlar:*

*– ayrıca öyrənilən əsərlərin məzmununu mükəmməl bilməyi;*

*– əsərlərin mövzu və ideyasını müəyyənləşdirməyi;*

*– bədii əsərlərin qəhrəmanlarını səciyyələndirməyi və onlara münasibət bildirməyi, obrazların fərdi xüsusiyyətlərini aşkar etməyi, qəhrəmanları müqayisə etməyi;*

*– əsərin yarandığı dövrlə əlaqəsini, sənətkarın yaradıcılığında və ya ədəbiyyat tarixində mövqeyini, əhəmiyyətini müəyyənləşdirməyi;*

*– əsərin bədii xüsusiyyətlərini (növ, şəkil, janr, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələri və s.) izah etməyi.*

*Proqram ədəbiyyat nəzəriyyəsindən ümumtəhsil məktəblərində qazanılmış biliklərin (ədəbi növ və janrlar, yaradıcılıq metodları, bədii təsvir və ifadə vasitələri, şeir vəznləri, kompozisiya, süjet, bədii yaradıcılıq metodu və s.) konkret nümunələrə tətbiqini də nəzərdə tutur.*

*Ədəbiyyatdan qəbul imtahanı proqramı TQDK-nın nəzdindəki ədəbiyyat fənni üzrə elmi-metodiki seminar üzvlərinin və Komissiyanın Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Biləsuvar, Cəlilabad və Quba, Ağcabədi, Göyçay, Şirvan regional bölmələri ilə yaradılan internet bağlantısı vasitəsi ilə müvafiq regionların müəllimlərinin iştirakı ilə müzakirə olunaraq qəbul edilmişdir. Sual kitabçalarına daxil ediləcək test tapşırıqlarının tərtibinin elmi-metodiki prinsipləri, şərtləri, əvvəllər olduğu kimi, dəyişməz olaraq qalır: **yanlış, mübahisəli, ziddiyyətli görünən materiallar üzrə testlər tərtib olunmur və sual kitabçalarına salınmır.***

***Azərbaycan şifahi xalq ədəbiyyatı.*** Azərbaycan şifahi xalq ədəbiyyatında növlər və janrlar.

Aşıq yaradıcılığı şifahi xalq ədəbiyyatının xüsusi qolu kimi.

***QƏDİM DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI*** *(ən qədim dövrlərdən XIII əsrə qədər).* Ədəbiyyatın formalaşmasında ümumtürk mədəniyyətinin, dini dəyərlərin ("Avesta" kitabı və islam dünyagörüşü) və ictimai-siyasi münasibətlərin rolu.

XI–XII əsrlərdə yaşayan və humanist ideyaları təbliğ edən sənətkarlar: Qətran Təbrizi, Məhsəti Gəncəvi, Əfzələddin Xaqani.

Məhsəti Gəncəvinin yaradıcılığı. Rübailərinin lirik qəhrəmanı.

Əfzələddin Xaqaninin yaradıcılığı. "Töhfətül-İraqeyn" ədəbiyyat tariximizdə bizə gəlib çatan ilk poema kimi. "Mədain xərabələri" qəsidəsi.

***"Dədə Qorqud" eposu.*** "Dədə Qorqud" qədim dövr Azərbaycan ədəbiyyatının möhtəşəm abidəsi kimi. Eposun mövzusu, ideyası, bədii xüsusiyyətləri. "Salur Qazanın evinin yağmalanması" boyunun məzmunu, təhlili. Dədə Qorqud obrazı. Boydakı digər obrazların (Qazan xan, Burla xatun, Uruz, Qaraca Çoban) səciyyəsi. Düşmən obrazları.

***Nizami Gəncəvi.*** Həyat və yaradıcılığı. Lirikası. Epik əsərləri. "Xəmsə"yə daxil olan əsərlərinin mövzusu və onlarda əksini tapan başlıca məsələlər. Nizami poemalarının əsas obrazları. "İsgəndərnamə" poeması. Poemada humanizm və ictimai ədalət ideyaları. Poemanın məzmunu, quruluşu və bədii xüsusiyyətləri. İsgəndər və Nüşabə obrazlarının təhlili.

***ORTA DÖVR (XIII–XVI əsrlər) AZƏRBAYCAN ƏDƏBİYYATI***

***XIII–XIV əsrlərdə*** anadilli şeirin inkişafı və nümayəndələri: İzzəddin Həsənoğlu. Şeyx Səfiəddin Ərdəbili, Qul Əli. "Dastani - Əhməd Hərami" poeması anadilli epik şeirin ilk nümunəsi kimi Qazi Bürhanəddin. Bu dövrdə əsərlərini farsca yazan Azərbaycan şair və mütəfəkkirləri: Zülfüqar Şirvani, Marağalı Övhədi, Arif Ərdəbili, Əssar Təbrizi.

***İmadəddin Nəsimi.*** Həyat və yaradıcılığı. "Yanaram" rədifli qəzəlində məhəbbət duyğularının tərənnümü. "Mən mülki – cahan ..." qəzəlində mənəvi-

əxlaqi məsələlər. Şeirdə kamil insan ideyası. Nəsimi yaradıcılığında hürufilik ideyaları.

***XV–XVI əsrlər*** anadilli şeirin inkişafında yeni mərhələ kimi. Kişvəri və Həbibi. Heca vəznli şeirin inkişafı və yeni üslubun formalaşması. Qurbani.

***Şah İsmayıl Xətai.*** Həyat və yaradıcılığı. "Ayrılır" rədifli qəzəli. "Dəhnamə" poeması. Poemanın mövzusu, ideyası. Əsas obrazlarının səciyyəsi. Bədii xüsusiyyətləri.

***Məhəmməd Füzuli.*** Həyat və yaradıcılığı. Lirikası. Füzuli şeirinin lirik qəhrəmanı. Qəzəlləri anadilli lirikamızın zirvəsi kimi. Məhəbbət və ictimai motivli şeirləri. Qəsidələri. "Əql yar olsaydı..." qəzəlinin mövzusu, ideyası. Lirik qəhrəman ağıl-eşq çıxılmazlığında. Qəzəlin bədii xüsusiyyətləri. M.Füzulinin poemaları. "Leyli və Məcnun" poeması. Mövzusu, ideyası. Leyli, Məcnun, Leylinin atası, Zeyd, Novfəl, İbn Səlam və digər obrazların təhlili. Poemanın bədii xüsusiyyətləri. Füzulinin bədii nəsri.

Füzuli yaradıcılığının sonrakı ədəbiyyata təsiri.

***YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI***

***I mərhələ.*** ***XVII-XVIII ƏSRLƏR AZƏRBAYCAN ƏDƏBİYYATI***

XVII-XVIII əsrlərdə şifahi və yazılı ədəbiyyatın inkişafı. Fədai, M.Əmani.

Bu dövrdə Füzuli ədəbi məktəbinin davamçıları: Məsihi, Saib Təbrizi, Qövsi Təbrizi.

XVIII əsrdə şeir yaradıcılığında realist üsluba meyilin güclənməsi. M.V.Vidadi. M.P.Vaqif.

XVII-XVIII əsrlərdə yaşamış aşıqlar. Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım. Bu dövrdə yaranmış məhəbbət dastanları: "Abbas və Gülgəz", "Şah İsmayıl", "Aşıq Qərib".

***"Koroğlu" eposu.*** Mövzusu və ideyası. Eposda zülmə, haqsızlığa qarşı xalq mübarizəsinin bədii əksi. Eposun quruluşu. "Həmzənin Qıratı qaçırması" qolu. Koroğlu və onun dəliləri. Qadın obrazları. Eposun bədii xüsusiyyətləri. "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarının oxşar və fərqli cəhətləri.

***Molla Pənah Vaqif.*** Həyat və yaradıcılığı. Anadilli şeirin, heca vəzninin, qoşma janrının Vaqif yaradıcılığında yeni mərhələyə qaldırılması. Qoşmaları. "Bəri bax" qoşması. Qoşmada lirik qəhrəmanın hiss və həyəcanlarının bədii əksi. Qəzəlləri. "Bax" rədifli qəzəli. Müxəmməsləri. "Görmədim" müxəmməsi. Son şeirlərində dövrdən narazılığın bədii əksi. Vaqif şeirində realizm.

***II mərhələ. XIX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI***

Ədəbi-mədəni şərait. Poeziyanın, nəsrin inkişafı. Maarifçilik ideyalarının təbliği. Abbasqulu ağa Bakıxanov, Mirzə Şəfi Vazeh, İsmayıl bəy Qutqaşınlı maarifçi ədəbiyyatın nümayəndələri kimi. Dramaturgiyanın yaranması. Milli teatrın və milli mətbuatın əsasının qoyulması. Xurşidbanu Natəvan. Nəcəf bəy Vəzirov.

***Qasım bəy Zakir.*** Həyat və yaradıcılığı. Lirik şeirləri. Qoşma və gəraylılarında gözəlliyin, insan mənəviyyatının bədii əksi. "Gəlsin" qoşmasının təhlili. İctimai məzmunlu şeirləri. Satiraları. Qasım bəy Zakir Azərbaycan ədəbiyyatında *satirik üslubun* formalaşmasında müstəsna rolu olan sənətkar kimi. Satiralarının əsas tənqid hədəfləri. "Xəbər alsan bu vilanın əhvalın" satirası. Satirada ictimai və əxlaqi-mənəvi qüsurların tənqidi.

***Mirzə Fətəli Axundzadə.*** Həyat və yaradıcılığı. Dramaturgiyası. M.F.Axundzadə Azərbaycan dramaturgiyasının banisi kimi. Komediya və dram janrında olan əsərləri. Komediyaları. "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah" komediyası. Mövzusu, ideyası. Əsərdə cəhalətin tənqidi. Komediyanın maarifçilik ruhu. Əsərdə konflikt və onun həlli. Əsas obrazların (Müsyö Jordan, dərviş Məstəli şah, Hatəmxan ağa, Şahbaz bəy) səciyyəsi. Qadın obrazları. Əsərin bədii dili.

Bədii nəsri. M.F.Axundzadə yeni tipli bədii realist nəsrin banisi kimi. "Aldanmış kəvakib" povesti. Mövzusu, ideyası. Əsərdə mütləqiyyətin ifşası. Əsas obrazların (Şah Abbas, saray xadimləri, Yusif Sərrac) səciyyəsi. Yusif sərracın islahatları. Bu islahatların başadüşülməzliyinin səbəbləri. Əsərdə ifşa üsulları. Povestin bədii xüsusiyyətləri və dili.

***Seyid Əzim Şirvani.*** Həyat və yaradıcılığı. Məhəbbət və ictimai-fəlsəfi lirikası. "Necə həmtay tutum hər büti-zibayə səni" qəzəlinin təhlili. Əxlaqi-didaktik əsərləri. Mənzum hekayələri. Satiraları. Satiralarının tənqid hədəfləri. Sənətkarlıq xüsusiyyətləri.

***Aşıq Ələsgər.*** Həyat və yaradıcılığı. Lirikasının əsas motivləri. Şeirlərində insan və təbiət gözəlliklərinin tərənnümü. Təcnisləri. İctimai məzmunlu şeirləri. "Dağlar" ("Bir ay yarım novbahardan keçəndə") rədifli qoşmasının təhlili. *"Görmədim"* rədifli qoşması dünyanın yaxşı-yamanını görmüş müdrik bir insanın faciəvi monoloqu kimi. Sənətkarlıq xüsusiyyətləri.

***III mərhələ. XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN ƏDƏBİYYATI (1900–1920-ci illər).*** Dövrün ədəbi-mədəni xülasəsi. Mətbuatın, teatrın, bədii ədəbiyyatın inkişafı. Bədii ədəbiyyatda tənqidi realizmin inkişafı. "Molla Nəsrəddin" Azərbaycan dilində nəşr olunan ilk şəkilli satirik jurnal kimi. Onun əsas müəllifləri: Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Mirzəli Möcüz.

Azərbaycan ədəbiyyatında romantizm. "Füyuzat" jurnalı və onun əsas müəllifləri: Əli bəy Hüseynzadə, Məhəmməd Hadi.

Ədəbi tənqidin inkişafı. Firidun bəy Köçərli, Abdulla Sur, Seyid Hüseyn.

*Cümhuriyyət dövrü ədəbiyyatı (1918–1920-ci illər).* Dövrün ictimai-siyasi və ədəbi xülasəsi. Əsas ədəbi şəxsiyyətləri.

***Mühacirət ədəbiyyatı.*** Onun əsas nümayəndələri (Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Rəsulzadə, A.İldırım, Ümmülbanu, Q.Səid və başqaları). Qurban Səidin “Əli və Nino” romanı. Azərbaycandakı milli istiqlal mücadiləsinin faciəli aqibəti. Əlixan obrazı. Onun sevgisi.

***Cəlil Məmmədquluzadə.*** Həyat və yaradıcılığı. Nəsr əsərləri. Dramaturgiyası. “Anamın kitabı” tragikomediyası. Əsərin mövzusu və ideyası. Əsərdə Vətən, ana dili və ziyalı problemi. Əsərdəki ana obrazı Vətənin rəmzi kimi. Rüstəm bəy, Mirzə Məhəmmədəli və Səməd Vahid qardaşları XX əsrin əvvəllərində mövcud sosial qrupların tipik nümayəndələri kimi. Bu qardaşların Vətənin dərdlərinə laqeydliyi. Ana Vətənin faciəsi. Gülbahar surəti.

Publisistikası. “Cümhuriyyət” məqaləsi. “Azərbaycan” məqaləsində Vətən və milli istiqlal probleminin qoyuluşu.

***Mirzə Ələkbər Sabir.*** Həyat və yaradıcılığı. Lirik şeirləri (qəzəlləri). Lirikasında ictimai-siyasi motivlər. “Səttarxana” şeiri. Səttarxana, onun başçılıq etdiyi milli azadlıq hərəkatına şairin rəğbəti.

Satiraları. M.Ə.Sabir Azərbaycan ədəbiyyatında satiranı yeni forma və məzmunca zənginləşdirən şair kimi. Sabir yeni tipli satiranın banisi kimi. “Amalımız, əfkarımız ifnayi-vətəndir” satirası. Satirada Vətənə, xalqa biganəliyin və riyakarlığın ifşası.

### *ƏN YENİ DÖVR AZƏRBAYCAN ƏDƏBİYYATI*
### *I mərhələ. XX ƏSRİN 10-CU İLLƏRİNİN SONLARINDAN 50-Cİ İLLƏRƏ QƏDƏR AZƏRBAYCAN ƏDƏBİYYATI*

Poeziya. Nəsr. Dramaturgiya. Ədəbiyyatşünaslıq.

***Hüseyn Cavid.*** Həyat və yaradıcılığı. Lirikası. Poemaları. Lirik şeir və poemalarında həyata və insanlara romantik münasibət, onun əsərlərində bədii və fəlsəfi ümumiləşdirmələrin əsas yer tutması.

Dramaturgiyası. H.Cavid Azərbaycan ədəbiyyatında romantik mənzum faciənin banisi kimi. “İblis” faciəsi. Əsərin mövzusu, ideyası. Faciədə insan xarakterindəki mənfi ehtirasların tənqidi. İnsanın İblisə uyması. İblis, Arif, Elxan, Rəna obrazlarının səciyyəsi.

***Cəfər Cabbarlı.*** Həyat və yaradıcılığı. Poeziyası. Nəsri. Dramaturgiyası.

“Oqtay Eloğlu” faciəsi. Mövzusu və ideyası. Oqtay Eloğlu surəti. Onun milli teatr uğrunda mübarizəsi, həqiqət axtarışları. Oqtayın faciəsi. Əsərin digər obrazları (Firəngiz, Aslan bəy).

***Səməd Vurğun.*** Həyat və yaradıcılığı. Lirik şeirləri. Lirikasının əsas xüsusiyyətləri. Poemaları. Dramaturgiyası. “Vaqif” pyesi. Mövzusu və ideyası. Dramda şəxsiyyət və cəmiyyət probleminin qoyuluşu. Əsas obrazların (Vaqif, Vidadi, İbrahim xan, Qacar, Xuraman, Eldar) səciyyəsi.

***Məhəmmədhüseyn Şəhriyar.*** Həyat və yaradıcılığı. Lirikası. Əsərlərində vətənin və xalqın taleyi məsələsi. “Heydərbabaya salam” poeması. Poemada vətənpərvərlik, doğma yurda məhəbbət duyğuları, Azərbaycanın birliyi və bütövlüyü ideyası, milli adət-ənənələrimizin tərənnümü.

***Mir Cəlal Paşayev.*** Həyat və yaradıcılığı. Yaradıcılığının ilk dövrü. Hekayələri. Romanları. “Dağlar dilə gəldi” povesti.

“Bir gəncin manifesti” romanı. Romanın mövzusu və ideyası. Əsas obrazları (Mərdan, Bahar, Sona).

### *II mərhələ. XX ƏSRİN 50-Cİ İLLƏRİNDƏN BU GÜNƏ QƏDƏR AZƏRBAYCAN ƏDƏBİYYATI*

Ədəbiyyatda yeni nəsil. Poeziya. Nəsr. Dramaturgiya. Ədəbiyyatşünaslıq.

***Rəsul Rza.*** Həyat və yaradıcılığı. Lirik şeirləri. Şeirlərində çağdaş insan və onun taleyi problemi. Poemaları. “Qızılgül olmayaydı...” poeması. Poemada Müşfiq obrazı.

***Mirzə İbrahimov.*** Həyat və yaradıcılığı. İlk qələm təcrübələri. Hekayə və povestləri. Əsərlərində Cənub mövzusu. Dramaturgiyası. Romanları. “Böyük dayaq” sovet dövrü Azərbaycan ədəbiyyatında kəndin mənəvi, iqtisadi və siyasi problemlərinə, şəxsiyyətə pərəstişin tənqidinə həsr olunmuş roman kimi. Bu əsərdəki əsas obrazların (Rüstəm kişi, Maya, Qaraş) səciyyəsi. Əsərin bədii xüsusiyyətləri.

M.İbrahimovun elmi yaradıcılığı.

***İlyas Əfəndiyev.*** Həyat və yaradıcılığı. Nəsr əsərləri. Dramaturgiyası. Əsərlərində lirik-psixoloji üslub. “Xurşidbanu Natəvan” dramı. Əsərin mövzusu və ideyası. Əsas obrazların səciyyəsi. Xurşidbanu Natəvan fəal ictimai-siyasi mövqeyi olan Azərbaycan qadını kimi.

***İsmayıl Şıxlı.*** Həyat və yaradıcılığı. Nəsr əsərləri. “Dəli Kür” romanı. Romanda tarixə yeni baxış və milli kolorit. Cahandar ağa obrazının səciyyəsi. Romanın bədii xüsusiyyətləri.

***Bəxtiyar Vahabzadə.*** Həyat və yaradıcılığı. Lirikası. Lirik şeirlərində Vətən mövzusu və ana dili məsələsi. Dramaturgiyası.

Poemaları. “Gülüstan” poemasında ikiyə bölünmüş Azərbaycanın dərdləri fonunda Vətənin bütövlüyü ideyasının bədii əksi.

## *ƏDƏBİYYAT NƏZƏRİYYƏSİ*

Bədii ədəbiyyat haqqında anlayış. Bədii ədəbiyyat həyat hadisələrinin obrazlı inikasıdır. Ədəbiyyat incəsənətin növlərindən biri kimi. Bədii ədəbiyyat söz sənətidir. Ədəbiyyatşünaslıq elmi və onun sahələri.

Bədii ədəbiyyatın qolları: şifahi xalq ədəbiyyatı, yazılı ədəbiyyat.

***Şifahi xalq ədəbiyyatının*** əsas xüsusiyyətləri. Şifahi xalq ədəbiyyatında ədəbi növlər və janrlar. Lirik növün janrları: nəğmələr, mahnılar, laylalar, oxşamalar, holavarlar, sayaçı sözləri, bayatılar. Epik növün janrları: atalar sözləri, məsəllər, lətifələr, tapmacalar, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar. Dastanların növləri: qəhrəmanlıq dastanları və məhəbbət dastanları. Dramatik növün janrları: xalq oyunları, xalq tamaşaları, şəbihlər.

***Aşıq şeirinin*** janrları: qoşma, gəraylı, təcnis. Qoşmanın məzmunca növləri.

***Nəzm və nəsr.*** Nəzmin xüsusiyyətləri: ahəng, vəzn, qafiyə, misradaxili bölgü (təqti), rədif ahəng yaradan vasitələr kimi. Şeir vahidləri: misra, beyt, bənd. Şeir şəkilləri (dördlük, beşlik, altılıq və s.).

***Azərbaycan şeirində vəznlər.*** Heca vəzni. Əruz vəzni. Sərbəst şeir.

***Yazılı ədəbiyyatda ədəbi növlər və janrlar.***

<u>Lirik növ</u> və onun janrları: qəzəl, qəsidə, qitə, rübai, tuyuq, müxəmməs, müsəddəs. Məsnəvi.

<u>Epik növ</u> və onun janrları: təmsil, hekayə, novella, povest, roman, oçerk, xatirə.

<u>Dramatik növ</u> və onun janrları: komediya, dram, faciə, tragikomediya. Dramatik əsərlərdə obrazların dili: monoloq, dialoq. Remarka.

Bədii əsərdə həyat hadisələrini əks etdirmə üsulları: tərənnüm, təhkiyə, təsvir.

***Bədii gülüş.*** Satira və yumor. Satirik üslub.

***Bədii əsərin quruluşu.*** Bədii əsərin mövzusu və ideyası. Bədii əsərdə əsas və epizodik obrazlar. İnsan, əşya və təbiət obrazları. Tip, xarakter. Bədii portret.

***Süjet və kompozisiya.*** Ekspozisiya, zavyazka, kulminasiya, razvyazka, final süjetin mərhələləri kimi. Kompozisiyanın elementləri: epiqraf, proloq, epiloq. Lirik ricət, peyzaj.

***Bədii əsərin dili.***

Bədii dilin tərkibi. Məcazilik. Bədii dildə məqsədli olaraq arxaizm, neologizm, varvarizm, dialektizm və vulqarizmlərin işlənməsi.

Bədii təsvir vasitələri: epitet, təşbeh, metafora, metonimiya, simvol.

Bədii ifadə vasitələri: bədii sual, bədii təzad, təkrir, mübaliğə, litota, kinayə, inversiya.

***Bədii yaradıcılıq metodu.*** Romantik metod. Realist metod. Ədəbi cərəyan və ədəbi məktəblər.

## ƏDƏBİYYAT SİYAHISI


1. *N.Cəfərov, T.Kərimli, Z.Əsgərli, A.Bakıxanova. Ədəbiyyat. X sinif. Bakı, 2012.*
2. *N.Cəfərov, İ.Həbibbəyli, N.Əliyeva, A.Bakıxanova. Ədəbiyyat. XI sinif. Bakı, 2012.*
3. *Ş.Mikayılov. Ədəbiyyat nəzəriyyəsi. 9-11-ci siniflər. Bakı, 2012.*
4. *Ədəbiyyat müntəxəbatı. X sinif. Bakı, 2012.*
5. *Ədəbiyyat müntəxəbatı. XI sinif. Bakı, 2012.*
6. *Ədəbiyyat. Qəbul imtahanlarına hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı, 2013.*
7. *Ədəbiyyat. Test tapşırıqları. X sinif. "Abituriyent" jurnalının xüsusi buraxılışı. Bakı, 2013.*
8. *Ədəbiyyat. Test tapşırıqları. XI sinif. "Abituriyent" jurnalının xüsusi buraxılışı. Bakı, 2013.*
9. *Ədəbiyyat nəzəriyyəsi. Test tapşırıqları. X–XI siniflər. "Abituriyent" jurnalının xüsusi buraxılışı. Bakı, 2013.*



*Ədəbiyyatdan qəbul imtahanı proqramı Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının nəzdindəki ədəbiyyat fənni üzrə elmi-metodiki seminarda müzakirə edilərək qəbul olunmuşdur.*
*Seminarın rəhbəri **f.e.d. M.K.İmanov***

*Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının rəhbərliyi proqramın tərtibində və təkmilləşdirilməsində zəhməti olan bütün seminar iştirakçılarına dərin minnətdarlığını bildirir.*